# XXI ƏSRİN "TACLI" BƏLASI

***Dünya iqtisadiyyatının zərəri milyardlarla hesablanır***

Cəmi iki ay əvvəl deyən olsaydı ki, adi bir virus dünyanın 205 ölkəsində həyatı iflic edəcək, dünya iqtisadiyyatını çökdürəcək, insanlar dörd divar arasında yaşamağa məhkum olacaq, dünyanın ən nəhəng şirkətlərinin dizi yerə gələcək, yəqin ki, hamı gülüb keçər, bunu deyəni ağılsız hesab edərdi. Amma bu bir faktdır ki, hazırda Yer planetində həyat sanki donub. Vaxtilə insanla dolub daşan böyük şəhərlər, dünyanın ən gözəl turizm mərkəzləri sayılan London, Paris, Berlin, Nyu-York, Madrid, Roma, Tokio, Pekin, İstanbul, Bakı və yüzlərlə böyük şəhərlər sükuta qərq olub. İndi bu meqapolislərin küçələri nəinki əcnəbilərin, hətta yerli insanların belə şaqraq gülüşünə, şən zarafatlarına həsrət qalıb.





***Beynəlxalq iqtisadi mərkəzlər proqnozlar verir***

Koronavirus adlanan bu pandemiyanın dünya iqtisadiyyatına vurduğu zərərin miqyası artır. Dünyanın iqtisadi mərkəzləri bu zərəri müxtəlif aspektlərdən analiz edərək proqnozlar verirlər. Beynəlxalq analitik mərkəzlərin hesablamaları üzrə, bu il dünya iqtisadiyyatında 4-5 faiz azalma ilə yekunlaşacaq. Avropa Komissiyası ekspertlərinin hesablamalarına görə isə Avropa Birliyi üzrə iqtisadi geriləmə 10 faiz təşkil edəcək. Avropa Mərkəzi Bankı proqnozlaşdırır ki, pandemiyanın yaratdığı iqtisadi böhranın qarşısını almaq üçün Avropaya 1,5 trilyon avro dəyərində addımlar tələb olunur.

Ümumdünya Ticarət Təşkilatı 2020-ci ildə dünya ticarətində 13 faizdən 32 faizədək azalma proqnozlaşdırır. Təşkilatın Cenevrədə açıqlanan hesabatında bunun əsas səbəbinin koronavirus pandemiyası olduğu vurğulanır.

COVID-19-un iqtisadiyyata vurduğu zərəri hesablayan JPMorgan Chase analitikləri bildirirlər ki, koronavirus pandemiyası üzündən dünya iqtisadiyyatı yaxın 2 ildə 5,5 trilyon dollar itirəcək. Analitiklərin sözlərinə görə, hazırda dünya 1930-cu illərin sülh dövründən bəri ən ağır resessiyaya girməkdədir.

İqtisadi tənəzzül qısamüddətli olsa da, bərpaya uzun müddət lazım gələcək: dünya üzrə Ümumi Daxili Məhsulun böhrandan əvvəlki səviyyəyə çatmasına 2022-ci ildən tez nail olmaq mümkünsüzdür.

***Ən ağır zərəri turizm sektoru görə bilər***

Pandemiya üzündən dünyada ən ciddi zərəri turizm sektoru görəcək – bu, artıq heç kimə sirr deyil. Hesablamalara görə, ən çox insan da məhz turizm sektorunda – xüsusilə otelçilik sahəsində işsiz qalacaq. Bunun əsas səbəbi pandemiyanın təsirlərindən çıxan insanların hələ uzun müddət hansısa ölkəyə turistik səfərə getməyə cəsarət etməməsi olacaq.

Bu il məzuniyyətini xarici ölkələrdə keçirmək istəyən və bu məqsədlə erkən rezervasiya üçün ödəniş edən insanların vəsaitlərinin geri qaytarılması da hazırda müzakirə mövzusudur. Artıq məlumdur ki, yaxın bir neçə ay içərisində hər hansı turist səfərinin reallaşdırılması qeyri-mümkündür. Bu səbəbdən də insanlar ödənişlərinin qaytarılmasını tələb edirlər. Mütəxəssislər isə bunun mərhələli şəkildə reallaşacağını deyirlər. Çünki həmin vəsait səfər zəncirinin halqaları arasında artıq bölüşdürülüb, hər kəs payına düşəni alıb, ona görə də onun qaytarılması xeyli vaxt aparacaq.

***Azərbaycanda əhaliyə dəstək məqsədilə 9 proqram hazırlanıb***

Qeyd edək ki, əksər dünya ölkələri pandemiyadan zərər çəkən sahələrə və əhaliyə istiqamətli dövlət dəstəyi proqramlarının icrasına başlayıblar. Azərbaycanda da bu məqsədlə 9 proqramın icrasına start verilib. Bunlardan birincisi, pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən biznes subyektlərinə əməkhaqqını ödəmək üçün dəstəyi nəzərdə tutur. Azərbaycanda







304 min muzdlu işçinin əmək haqlarının dövlət tərəfindən ödənilməsi nəzərdə tutulur. Bu, Prezident İlham Əliyevin "Koronavirus (COVİD-19) pandemiyası və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamına əsasən hazırlanmış "Pandemiyadan zərər çəkmiş sahələrdə əmək haqlarının ödənilməsi üçün maliyyə dəstəyi proqramı"nda nəzərdə tutulub.

Proqrama əsasən, əməkhaqqı ödəniləcək işçilərin 106,4 min nəfəri ticarət, 87 min nəfəri xidmət, 78,8 min nəfəri sənaye, 7,8 min nəfəri nəqliyyat, 24,6 min nəfəri isə digər sahələrdə çalışır. Ümumilikdə bu sektorlar üzrə 20 fəaliyyət sahəsinə dəstək verilməsi nəzərdə tutulur. Əməkhaqqına yönəlmiş dövlət dəstəyinin ümumi həcmi 215 milyon manat təşkil edəcək.





İkinci proqram pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsini nəzərdə tutur. Bu sahibkarların 2019-cu ildə ödədikləri vergilər onlara geri ödənilir. 300 min sahibkara ümumilikdə 80 milyon manat veriləcək.

Bu tədbir pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrində (avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili sərnişin daşımaları (o cümlədən taksi ilə), yerləşmə vasitələri hesab edilən mehmanxana, hotel, hostel və oxşar obyektlər, turoperator və turagentlər, sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının daşınması və (və ya) çatdırılması, ictimai iaşə, sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zalları, idman-sağlamlıq obyektləri, hazırlıq (tədris) və ixtisasartırma kurslarının, uşaq tədris və inkişaf mərkəzləri, uşaq klubları, psixoloji mərkəzləri, əhalinin sağlamlığı və təhlükəsizliyinin təmini ilə bağlı fəaliyyəti Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən tam və ya qismən məhdudlaşdırılan sahələrdə və digər sahələrdə) fəaliyyət göstərən vergi ödəyicilərinin vergi yükünün azaldılmasını, vergi öhdəliklərinin yerinə yetirilməsi və hesabatların verilməsi müddətlərinin uzadılmasını və digər məsələləri əhatə edən vergi güzəştlərini və tətillərin verilməsini nəzərdə tutur.

Bunlarla yanaşı, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin idxalı, habelə əhalinin ərzaq, tibb və digər zəruri məhsullara olan tələbatının qısa müddətdə ödənilməsi məqsədilə bəzi məhsul növlərinin istehsalı ilə bağlı xammal və materialların idxalının müəyyən müddətdə ƏDV-dan azad edilməsi, ödənilməmiş vergi, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanmasının təxirə salınması və bir sıra sahibkarlıq subyektləri üzrə sosial sığorta yükünün azaldılması məsələlərini əhatə edən dəyişikliklər də hazırlanır.

Azərbaycan dövlətinin həyata keçirməyə başladığı digər proqram sosial qayğını nəzərdə tutur. Belə ki, 200 min nəfər işsiz şəxsə 190 manat müavinətin ödənməsini nəzərdə tutan proqramın icrasına artıq başlanıb. Bu məqsədlə dövlət büdcəsindən 80 milyon manat vəsait ayrılıb.

Bundan əlavə, aztəminatlı ailələrin övladlarının təhsil haqqının ödənməsi üçün 45 milyon manat vəsaitin ayrılması da müəyyənləşdirilib.

****

***Tarixən bəşəriyyət bir neçə dəfə belə hallarla üz-üzə qalıb. Xüsusilə koronavirus adı ilə yayılmış pandemiyalar zaman-zaman müxtəlif ölkələrdə milyonlarla zərər vurub. Təkcə 1918-1920-ci illərdə "İspan qripi" adlandırılan tacşəkilli virusdan 100 milyondan çox insan ölüb. Lakin yer üzünün əşrəfi adlandırılan və ən ali varlıq olan insanın zəkası bütün zamanlarda bu bəlalara qalib gəlib, qarşısını almağın yollarını tapıb. Təbii ki, müəyyən müddətdən sonra bütün bu günlər arxada qalacaq, həyat öz axarına düşəcək. Turistlər yenə müxtəlif ölkələrə səfərlər edəcək, meqapolislər insanlarla dolub daşacaq, insanlığın, bəşəriyyətin gülüşü, sevinci özünə qayıdacaq.*** ◆

**Fəxriyyə Abdullayeva**